Bank Olmayan kredit təşkilatı "İNTERNATİONAL"

AÇIQ SƏHMDAR CƏMİYYƏTİNİN

Ümumi yığıncağının 3 saylı Protokolu

(çıxarış)

Bakı şəhəri ***05.10.2026-cı il***

Bank Olmayan kredit Təşkilatı "İnternational" Açıq Səhmdar Cəmiyyətinin (bundan sonra "Cəmiyyət") Səhmdarı:
Həsənov Rifat Vaqif oğlu (ş/v AZE 16996005) – 10000 (on min) ədəd səhm; 100% iştirak payı.
Dəvət olunanlar: Cəmiyyətin İdarə Heyətinin sədri Həsənov Nicat Vaqif oğlu

Həsənov Rifat Vaqif oğlu – Sədr
Məmmədzadə Firuzə Üzeyir qızı – Katib

Gündəlikdə olan məsələ:

1. Yekun şərtlərə dəyişikliyin edilməsi

<u>Çıxışlar: İclasın Sədri Həsənov Rifat Vaqif oğlu iclası açıq elan etdi.</u>

Söz Cəmiyyətin İdarə Heyətinin Sədri Həsənov Nicat Vaqif oğluna verildi. Nicat Həsənov bildirdi ki, AR Mərkəzi Bankı tərəfindən 09.07.2026-cı il tarixdə dövlət qeydiyyatına alınmış, "BOKT İNTERNATİONAL" ASC-nin səhmdarlarının 18 may 2026-cı il tarixli 2 saylı qərarına əsasən buraxılan adlı, faizli, sənədsiz, təmin edilməmiş istiqrazların aşağıdakı Yekun şərtlərinə müvafiq dəyişikliyin edilməsi zəruridir:

- 6 saylı Yekun şərtlər – qeydiyyat nömrəsi AZ2053021021;
- 7 saylı Yekun şərtlər – qeydiyyat nömrəsi AZ2054021020;
- 8 saylı Yekun şərtlər – qeydiyyat nömrəsi AZ2055021029.

İlkin Yekun şərtlərdə istiqrazların illik 18% faiz dərəcəsi ilə və 36 ay tədavül müddətinə buraxılması nəzərdə tutulmuşdu. Lakin bazar şərtlərinin təhlili və təşkilatın maliyyə dayanıqlığının təmin edilməsi məqsədilə Yekun şərtlərə dəyişiklik edilərək, istiqrazlar üzrə illik faiz dərəcəsinin 15%-ə, tədavül müddətinin isə 24 aya endirilməsi məqsədəuyğundur. Dəyişiklik Yekun şərtlərin 1.7, 1.8, 1.9, 2.4, 2.6, 2.11, 2.20 və 2.21-ci bəndlərinə aiddir.

Təklif səsə yeganə səhmdarın qərarı ilə aşağıdakı qaydada qəbul edildi:

Lehinə- 1 səhmdar, 10000 səs; 10000 ədəd səhm, 100%;

QƏRARA ALINDI

BOKT İNTERNATİONAL" Açıq Səhmdar Cəmiyətinin səhmdarlarının 18 may 2026-cı il tarixli 2 saylı qərarına əsasən 09.07.2026-cı il tarixdə AR Mərkəzi Bankı tərəfindən dövlət qeydiyyatına alınmış AZ2053021021 AZ2054021020 və AZ2055021029 qeydiyyat nömrəli hər birinin nominal dəyəri 100 (yüz) manat olan 100 000 (bir yüz min) ədəd adlı, faizli, sənədsiz, təmin edilməmiş istiqrazların 6, 7 və 8 saylı yekun şərtlərinin bəndləri aşağıdakı redkasiyada yenidən təsdiq edilsin:

1.7. Tədavül müddəti: 24 ay;

1.8 və 2.4-cü bəndləri: İstiqrazlarla təsbit olunan hüquqlar, onların həyata keçirilməsi qaydası və onlara dair məhdudiyyətlər: Məhdudiyyətlər mövcud deyil.

İstiqraz mülkiyyətçilərinin aşağıdakı hüquqları vardır:

a) İstiqrazların tədavül müddətinin sonunda istiqrazın nominal dəyərini Emitentdən almaq;

b) İstiqrazın nominal dəyərindən illik 15.00 (on beş) faiz olmaqla istiqrazın tədavül müddəti ərzində faiz almaq;

c) Emitentin ləğvi, yaxud emitentin kreditorlarının tələblərinin ödənilməsinin təminatına real təhlükəyə səbəb olan onun yenidən təşkili barədə qərar qəbul edildikdə, habelə Emitent müflis elan olunduqda İstiqrazların nominal dəyərinin və həmin anadək hesablanmış, lakin ödənilməmiş faizlərin vaxtından əvvəl ödənilməsini Emitentdən tələb etmək;

d) Azərbaycan Republikasının qanunvericiliyində nəzərdə tutulmuş digər hüquqlar.

1.9-cu, 2.6-cı və 2.20-ci bəndləri: İstiqrazlar üzrə gəlirliyin faiz dərəcəsi: illik 15.00 (on beş) faiz.

2.11. Gəlirlilik dərəcəsi və onun hesablanması qaydası:

İstiqrazlar üzrə faiz gəlirinin məbləği aşağıda göstərilən düsturla müəyyən edilir:

$$TF = (N * D * G / 360) / 100$$

Burada,

TF – Bir istiqraz üzrə toplanmış faizlər;

N – Bir İstiqrazın nominal dəyəri – 100 (bir yüz) Azərbaycan manatı;

D – İstiqrazların illik gəlirlik dərəcəsi – 15.00 (on beş);

G – İstiqrazların faiz ödəniş dövrünün müddəti – 30 gün.

2.21. İstiqrazların və faizlərin ödənilməsi tarixi və müddəti:

İstiqrazların ödənilmə müddəti buraxılışda olan ilk istiqrazın yerləşdirildiyi tarixdən etibarən 24 ay təşkil edir. İstiqrazlar üzrə ödənilməli olan faizlər buraxılışda olan ilk istiqrazın yerləşdirildiyi tarixdən etibarən dövri olaraq hər 30 gündən bir ödəniləcəkdir.

Sədr Həsənov Rifat Vaqif oğlu

Katib Məmmədzadə Firuzə Üzeyir qızı